İSGƏNDƏR FƏRHADOĞLU

# ARI KƏŞFİ

***(Kitab 1993-cü ildə Bakı şəhərində "Gənclik" nəşriyyatında kiril əlifbası ilə çap olunmuşdur. Kitabın redaktoru Zülfüqar Şahsevənlidir.)***

**BAKI - GƏNCLİK – 1993**



**Az 2**
**F 65**

**Redaktoru** *Zülfüqar Şahsevənli*

**İsgəndər Fərhadoğlu**

F 65 Arı kəşfi. B.: Gənclik, 1993 72 səh.

İsgəndər Fərhadoğlunun “Arı kəşfi” kitabında toplanmış təmsillər maraqlı həyat müşahidələrinin məhsuludur. Şöhrət düşkünləri, yaltaqlar, lovğalar, mənsəbpərəstlər, katyeristlər müəllifin tənqid hədəfidir.

Kitab Goranboy rayon mədəniyyət, istehsalat və kommersiya birliyinin sponsorluğu ilə çap olunub.

F $\frac{4702060201}{M\ 653\ (07)-93}$ elansız

Az 2

ISBN 5 – 8020 – 1108 – 4

© Gənclik, 1993

## KİTAB

Düşüb nadan əlinə,
Bir dahinin əsəri.
Bir dəfə oxunmayıb
Uzun illərdən bəri.
Rəfdə dustaq qalıb o,
Bir görün neçə ildi?!
Çünki rəfin rənginə,
Çox uyğun gəlir cildi...

## KİRKİRƏ İŞTAHASI

- Ehtiyacım yox suya,
Ehtiyacım yox pərə.
Daşı da üyüdərəm! –
Söyləyirdi Kirkirə...

Bu lovğa Kirkirənin,
Böyük idi istəyi.
Etibarlı əldəydi,
Çünki onun dəstəyi...

## MİŞAR

Mişar çoxlu Taxtanı,
Kəsmişdi neçə kərə.
Bitili Palıdı da
Kəsib yıxmışdı yerə...
Köhnə taxtanı isə,
Görüb, geri durmuşdu.
...Bir vaxt mismarlı Taxta,
Dişini sındırmışdı!..

## RƏQABƏT

İki Qoç yerli-yersiz,
Toqquşurdu hər zaman.

Bir-birini yıxmağa,
Can atırdı durmadan...

...Buynuzlar tab etmədi,
Buynuzlar qopub düşdü, -
Onlar yenə doymadı.
Uzun sözün qısası,
Bu iki Qoçun başı,
Bir qazanda qaynadı...

**KƏRTƏNKƏLƏ**

Çəmənliyə göndərdilər,
Çəmənliyə uyğunlaşdı –
yaşıllaşdı.
Çınqıllıqda iş verdilər,
Boz don geydi –
uyğunlaşdı.
Gah ağaca dırmandı,
Gah ilan tək süründü.
Məqsədinə çatmaq üçün,
Yüz kələyə büründü...

Fəqət, bir gün keçdi ələ,
Quyruğunu qoyub, qaçdı
Kərtənkələ, Kərtənkələ...

**SAC**

Sac hər zaman deyirdi:
- Bilin, "Bala Günəşəm!"
Hərarət mənbəyiyəm, -
Şəfa yaymaqdır peşəm...

...Kimə gərək olsaydı,
Sac dayaq axtarırdı.
Hey düşüb əl-ayaqdan,
Sacayaq axtarırdı...

## DÖRD RƏNGLİ QƏLƏM

O, istəsə yüz sözü,
Bir ahənglə yazırdı.
İstəsə bir kəlməni,
Düz dörd rənglə yazırdı...
Sən demə yalanları,
Qırmızı yazan oymuş.
Düzü göyə, yaşıla,
Qaraya yozan oymuş.
Arxada böhtan yazıb,
Üzlərə gülən imiş.
Dörd sözlü, dörd sifətli,
Dörd rəngli Qələm imiş...

## MALA VƏ DİVAR

Əyri Divar
            Malanın,
Yolunu gözləyirdi...
Çünki bu Mala onun
Eybini gizləyirdi!..

## QANQAL

Güllərin cərgəsində,
Bircüt Qanqal bitmişdi.
Güllərin cərgəsində,
Bir cüt Qanqal itmişdi!..

## TÜL PƏRDƏ

Ömrü boy pərdəlik
Etməsə də Tül Pərdə -
Pərddən də qabaqda,
Asılırdı
            hər yerdə...

## TOP

Atsalar da Divara,
Vursalar da Dirəyə, -
Onlardan üz çevirib
Topdönürdü geriyə...

## XƏLBİR

Taxıla qarışmışdı
Alaqotu toxumu.
Hamı elə bilirdi,
O, Taxılın doğmaca,
Qohumudur, qohumu.
Tezliklə o, çuvalda,
Taxılla dilbir oldu...
(Yaxşı ki Xəlbir varmış!..)
O xəbisi axtaran,
Arıyan Xəlbir oldu,
Onu təmiz taxıldan,
Ayıran Xəlbir oldu!..

## FIRÇA

Fırça Daşa, Divara
İncə naxış vururdu.
Adi, cansız Kağıza,
Yeni həyat verirdi.

Ancaq hamı qorxurdu,
Onun bir əməlindən;
(Ləkə yaxmaq gəlirdi,
Axı həm də əlindən!..)

## ƏRKÖYÜN BALA

Bir Kenduru balası,
Keçdi qlın kollardan.
Enli yarağanlardan,
Təhlükəli yollardan...

...Ancaq bunun səbəbi,

Sirr deyil bir kəsə də.
Axı, anası onu,
Gəzdirirdi kisədə!..

## CİB FƏNƏRİ

Qaranlıq bir gecədə,
Söylədi Cib Fənəri:
-Məni əvəz etməyə,
Kimin çatar hünəri?!
Heç Ay da məmim qədər,
Şəfəqlər saça bilməz.
Ulduzlar yüz il yansa,
Səhəri aça bilməz...

...Özünün aləmində,
O, sönməz Günə döndü.
Gecə yarı olmamış,
Zəiflədi və... söndü.

## BIÇAQLAR

Bıçaq dedi Bıçağa:
-Tək əldən də səs çıxar?!
Gəl birləşək,
birləşsək,
Gücümüz lap dağ yıxar.

Birləşdilər...
Onların
Taleyi acı oldu.
İki Bıçaq bir anda,
Çevrilib, Qayçı oldu...

## ÇƏRPƏLƏNG

Yerdən azca qalxaraq,
Belə dedi Çərpələng:
-Yerlərə sığışarmı,
Mənim kimi bir nəhəng?!
İstəsəm, gecə-gündüz,
Səmalarda süzərəm.
İstəsəm, lap Günəşin

Qarşısını kəsərəm.
Bulud tək boşalaram,
Bulud kimi dolaram
Mən öz sərin kölgəmi,
Səhralara salaram.
Uca-uca dağları,
Saxlayaram kölgədə.
Mən olmasam quruyar,
Göllər, çaylar, bəlkə də...

Özündən razı-razı,
Öyünsə də bu "nəhəng",
Bircə sapla torpağa
Bağlı idi Çərpələng !..

**MƏQALƏ**

Çil Toyuğun haqqında,
Bir məqalə yazdı Qaz:
- Dolaşsanız dünyanı,
Belə Toyuq tapılmaz.
Yoxdur ona bərabər,
Nə fermada, nə hində.
İldə dörd yüz yumurta,
Yumurtlayır bu sində...

...Müəllif əsas mətləbi,
Heç salmırdı yadına.
Üç fərə işləyirdi,
Çil Toyuğun adına!..

**RÜŞVƏT**

Qoca Ayı manejdə,
Velosiped sürürdü.
Hamıya baş əyərək,
Nazla salam verirdi.
Gah mayallaq aşırdı.
Gah da o, mil dururdu.
Qılıqlanıb özünü,
Oda-közə vururdu...

Çünki təlimçi ona,

Tez-tez konfet verirdi.
Şirinlik adı ilə,
Ona rüşvət verirdi!..

## ŞANAPİPİK

Şanapipik divara,
Budaqlara qonurdu.
Gah yaxına qonurdu,
Uzaqlara qonurdu...
İş yerini dəyişmək
Adət olmuş bu quşa.
Əmək kitabçası da,
Dolmuşdu başdan-başa...

## TƏYİNAT

Təhsilini bitirdi,
Bir Qartalla bir Beçə.
Sevincdən yatmadılar,
Məzunlar həmin gecə.
Onlar qanad açaraq,
Danışırdı, gülürdü.
Onlar öz sevincini,
Dostlar ilə bölürdü.

...Ancaq təyinat vaxtı,
Sevinclər döndü qəmə.
Beçə düşdü dağlara,
Gənc Qartalsa bir hinə!..

## ARI KƏŞFİ

Çoxdandır ki görünmür,
Çiçəklikdə bir Arı.
Daha onu cəlb etmir,
Çiçəklərim nektarı...

...Bu Arı kəşf etmişdi,
Yeni bal almaq fəndi.
Çevirib bal edirdi,

Pətəkdəcə o, qəndi.

## DİVAR

Bir Divar lovğalanıb,
Dağ sanırdı özünü...

O, yağışda dağıldı _
Çünki yoxdu özülü...

## DƏM ÇAYDANI

Lüləyini dik tutub,
Söylədi Dəm Çaydanı:
- Qanımla dolduraram,
Neçə-neçə Fincanı.
Özüm boyda Günəşəm,
Özüm boyda Vulkanam.
Hamıdan yüksəkdəyəm,
Mən çox nəhəng Çaydanam!..
“Mənəm-mənəm!” – deyərək,
O,çox döydü döşünə.
Çünki o qoyulmuşdu,
Samovarın başına...

## KÜLÜNG

Külüng – deyəndə dağlar,
Sal daşlar düşür yada.
Çünki Külüngün izi,
Qalıb neçə qayada.
Külüng, cığırlar açıb,
Səhralara su çəkib.
Külüng zirvə daşını,
Sındırıb saray tikib.

Ancaq hərdən dəyişib,
Öz yolunu azırdı.
Bir gödək Dəstək ilə,
O, quyu da qazırdı...

**MAQQAŞ**

Xeyli vaxtdır bir Maqqaş,
İş gəzirdi ğzünə.
Maşaya baxıb,
tamah
Saldı ocaq közünə...

Ancaq közə çatmamış,
Geri durdu əlbəəl.
Çünki közdən qorxurdu,
Bu Maqqaşı tutan Əl!..

**ÇÜRÜK DİŞ**

Bir Çürük Diş var idi,
Dişlərin sırasında.
Dişlik edə bilmirdi,
O, dişlər arasında.

Başına tac qoydular,
Bir gün onu yonaraq.
Qızıl Dişəm! – dedi, o,
Öz adını danaraq...

**BULAŞIQ ÇÖNÇƏ**

Qazanın kənarına,
Qoyulmuşdu bir Çömçə.
İstədi isti süddən,
Götürsün o, bir çömçə.
Südün ətri vurduqca,
Tamah onu bürüdü.
Qazana girən kimi,
O süd tamam çürüdü.
Heç Qazan da bilmədi
Bunun səbəbi nəydi?!
(Südü belə çürüdən,

Bu bulaşıq Çömçəydi!..)

## ACGÖZ QUYU

Bir quyu qazmışdılar,
Görünmürdü zirvəsi.
Lakin gözə dəymirdi,
Suyun bircə zərrəsi.
Bu Quyuya Arx çəkib,
Doldurdular su ilə.
Onun şanı, şöhrəti,
Yayıldı bütün elə.
...Ancaq səhər gördülər,
Yenə bomboşdur Quyu.
O, gecəykən içmişdi,
Tökülmüş bütün suyu...

Burada sözün düzü,
Yada düşür el sözü:
“Kənardan su tökməklə,
Hər quyu,
Quyu olmaz.
Özündə su olmasa,
Hey su tök quyu dolmaz!..”

## SAMAN ALTINDA SU...

Hə tərəf qupquruydu,
Su çəkdi xırmanda dən.
Heç kəs deyə bilmirdi,
Xırman islanıb nədən.
...Arx da gözə dəymirdi.
Yağış yoxdu bu zaman.
Demə Arxı gətirib,
Sinəsi altda Saman!..

## QƏLİB

Çox möhkəm qoyulsa da,
Bir divarın özülü;
Düzgün tikmək olmurdu,
Bu Divarın özünü.
Mala çox çalışsa da,

Yapışmırdı Daş Daşa.
Şaqul düzə bilmirdi,
Kərpicləri baş-başa.

... Kərpiclər əyri idi, -
Ödəmirdi tələbi.
Demə bir az əyriymiş,
Kərpiclərin qəlibi!..

**KƏMŞİRİN ŞƏRAB**

Boş şüşəyə tökdülər,
Bir kəmşirin Şərabı.
Hər tərəfə yayıldı,
Onun şanı, şərəfi.
O, Konyak adı ilə,
Gəldi süfrə başına.
Neçə Qədəh toplaşdı,
Bu Şərabın başına...

Tıxacını açarkən,
Hamı düşdü təşvişə.
(Beşulduz Konyakınmış,
Demə həmin boş şüşə!..)

**SMETA**

Hin tikmək istədilər,
Köhnə hinin yanında.
Hamı işə başladı,
Səhər,
          Xoruz banında.
Smetalar tutuldu,
Çertyojlar cızıldı.
Material almağa,
Çox sənədlər yazıldı.
Dedilər: - Sement, - bir ton,
Mişar daşı – min dənə.
Bir az qum, bir az taxta,
Bəs eləyər bu hinə...

...Ancaq yenə yarımçıq,
Qaldı hinin barısı.
Mədəndə satılmışdı,
Çünki daşın yarısı.
Həm də kiçik kəsmişdi,
Nədənsə Mişar Daşı.
Çatmadı hin tikməyə,
İki min Mişar Daşı...

**GƏBƏ TALEYİ**

Çoxdandır döşəməyə,
Sərilmişdi bir Gəbə.
Divara boylanraq,
Ah çəkirdi hər dəfə.
Deyirdi: - Belə yerdə,
Hər bir Palaz alçalar.
Divarlardan asılıb,
Çox Kilimlər, Xalçalar!..

...Ona ilgəklər tikib,
Süpürdülər tozunu.
Yan divardan asdılar,
Nəhayət, bir gün onu.
Lakin artıq gec idi,
Taliyinin gülməsi.
Döşəmələr üstündə,
Çürümüşdü ilməsi...

**SİÇAN QORXUSU**

Fil, Ayını bir anda,
Xortumuna alırdı.
Pələng ondan qorxurdu,
Canavar “tük salırdı”.
Əgər Şirə: - Öl! – desə,
Şir o saat “ölürdü”.
Çaqqal quyruq bulayıb,
Tülkü üzə gülürdü.

...Filsə hər an Siçanın,
Girirdi qılığına.
Çünki Siçan bu Filin,
Girirdi qulağına...

**DURĞUNLUQ**

Coşğun Göldən kəsildi,
Kiçik Çayın ayağaı.
Bu Göl susdu getdikcə,
Bir lal sükut sayağı.

Sahilləri daraldı,
Ləpələri hey susdu.
Yosun basdı üzünü,
Suyu çirkaba döndü.

Bulaqlardan, çaylardan
Üzüldü onun əli.
Bataqlığa döndərdi,
Durğunluq həmin Gölü!..

**VİNTAÇAN FƏNDİ**

Taxtadan çıxarsa da,
Mismarları Kəlbətin, -
Vinti çıxarmaq ona,
Olmuşdu yaman çətin...
Ona yaxşı bəllidir,
Çəkicin hər bir fəndi.
Ancaq neçə bərkidib,
Bilmir Vintaçan Vinti.

**MAQNİT VƏ KOMPAS**

Maqnit köçüb kompasa
Qonşu olandan bəri,
Çox tez-tez itirirdi,
Bu Kompas cəhətləri...

## QƏLƏM VƏ KAĞIZ

Qara Qələm Kağıza,
Çox sözlər yazdı, getdi.
Təmizə çıxmaq üçün,
Kağız gəlib Pozana,
Yalvardı,
          minnət etdi..

## GÜRZƏ YALANI

Gül-çiçəyə dolaşdı,
Çəməndə gəzdi Gürzə.
Dişinə zəhər yığdı,
Çəməndə gəzə-gəzə.
Dedilər: - Əməlindən,
Bir azca utan, barı!
Bi çəməndən bir pətək,
Bal toplayıb hər Arı...
Dedi: - Arılar sorub, -
Güllərdə bal qalmayıb.
Çiçək-çiçək gəzməkdən,
Heç məndə hal qalmayıb!..

Bal toplaya bilmirdi,
Danışırdı o, yalan.
Çəməndə ov edirdi,
Bu ilan oğlu ilan!..

## DƏRƏ XƏLVƏT OLANDA

Dərəni xəlvət görüb,
Yamanca coşdu Tülkü.
Qəzəbli görkəm alıb,
Həddini aşdı Tülkü:
- Qırqovul vaqqıldasın,
Nəğmə desin Bayquşlar.
Qrdəklər çıxsın sudan,
Yerə ensin qoy quşlar.
Torpaqları şumlasın,

Gecə-gündüz Siçanlar.
Bu dərədə bəy mənəm, -
Bilsin burdan keçənlər!..

...Verilirdi durmadan,
Tələb, tələb dalınca.
Bəylik edirdi Tülkü,
Dərə xəlvət olunca!..

## QARĞA DƏLİLİ

Hər yana car çəkirdi,
Hər zaman Qara Qarğa:
- Nəslimizi danırlar,
Gözümüz baxa-baxa.
Qartal da, Qar Quşu da,
Bizim nəslin oğludur.
Onlar elə əvvəldən,
Bu dağlara bağlıdır.
Doğmaca qohumumdur,
Qaratoyuq, Qaraquş.
Bizimkidir Qara çay,
Bizimkidir qarlı dağ.
Məskənimiz olubdur,
Qədimlərdən Qara dağ.

...Vardı onun əlində,
"Daşdan keçən" əsası.
Axı həmin sözlərin,
"Qar" idi ilk hecası...

## ARI YALANI –ARI PLANI

Arılar car çəkirdi:
- Bu il balımız boldur.
Çiçək kasad olsa da,
Bal bu il xalis baldır.
Beş çəllək bal toplayıb,
Beş ayda bizim pətək.
Son damla nektarı da,

Yığmışıq ətək-ətək!..
Düzdür, bu il arılar,
Çiçək görsə də hərdən,
Onlar bu balı yığıb
Həll edilmş şəkərdən.
Bilənlər bilirdi ki,
Bunlar da bir kələkdir.
Kağızın üzərində,
Bir damla, bir çəlləkdir.

**SƏRÇƏ MEMARLIĞI**

Qaramquş yuvasına,
Baxıb söylədi sərçə:
- Belə yuvalar tikək,
Biz gərək neçə-neçə.
Dimdikdə su gətirək,
Gil tökək, saman qataq.
Lazım gəlsə bu yolda,
Tük tökək ətək-ətək!..
...Verib qanad-qanada,
Hey sökdülər, tikdilər.
Doğrudan da bu işə,
Xeyli lələk tökdülər.

...Başa çatmamış uçdu,
İlk yuvanın divarı.
Çünki həmin yuvanın,
Sərçə idi memarı...

**MİSMARLAR... TAXTALAR**

Bərk Taxtaya çaldılar,
Bir paslanmış Mismarı.
İlk zərbəsən qayıtdı,
Mismar Çəkicə sarı...

Polad Mismar vurdular,
Bir çürümüş Taxtaya.
Qaldı həmin Taxtada,

O, laxlaya-laxlaya...

## FAL YEYƏN TOYUQ

İclasda qaqqıltıyla,
Danışırdı Çil Tiyuq.
(Son vaxtlar o, nədənsə
Olmuşdu Qazdan ayıq.)
O, hinə təzə gələn
Hər qonaqdan danışdı.
Yumurtadan söz açdı,
Qayqanaqdan danışdı.
Dedi: - Yaman tənbəldir,
Bu hinin hər fərəsi.
Beş-on yumurta verib,
Ötən ildən hərəsi...

Ancaq həmin Çil Toyuq,
Özü yalan deyirdi.
Yumurta verməsə də,
O, falı da yeyirdi...

## SÜD GÖLÜ

Süd camını görəndə,
Həvəs doldu canına.
Çox sevinclə yanaşdı,
Göy Milçək süd camına.
Dedi: -Arzularımız,
Üzə gülər bizim də.
Biz də, biz də üzərik,
Süd gölünün üzündə.

...Sonra öz taleyindən,
Çox səxavət umdu o.
Gözündə neçə arzu,
“Süd gölünə” cumdu o.

Ancaq o,”süd gölündə”,
Damla içə bilmədi.
“Süd gölündə” boğuldu,
Ordan uça bilmədi!..

## QARIŞQALI DAŞ

Kiçik arxı kəsmişdi,
Dəcəl Meymun daş ilə.
İndi də daş atırdı,
Çox cəhd ilə gur selə.
Birdən onun canına,
Qarışqalar daraşdı.
O özünü itirib,
Coşğun sellərə aşdı...

Öz sevimli işinə,
Yaman qarışıb başı, -
O, yerdən qaldırmışdı,
Qarışqalı bir daşı.

## MAQNİT TAMAHI

Maqnit çəkdi özünə,
Xırda Vinti, Mismarı.
Hətta Vintaçanı da,
Çəkdi özünə sarı.

Çıxartdı samanlıqdan,
Neçə İynə, neçə Mil.
Üstü tamam dolmuşdu, -
Bir dağ idi elə bil.

...Tamah ona güc gəldi,
Yaxınlaşdı Zindana.
Onu çəkmək istərkən,
Özü yapışdı ona...

## PLASTİLİN

Plastiln çevrilib,
Gaj Fil oldu, gah Milçək.
Donuz, Öküz, Gərgədan,
Gah da oldu bir Xərçəng.
...Onu belə dəyişən,
Bir dəcəl uşaq idi.
Çünki bu Plastilin,

Yamanca yumşaq idi!..

## İSTƏK

Qarlı dağlar mənimdir,
Sal qayalar mənimdir.
Orada doğulmuşam, -
Mən ordan qovulmuşam!..-
Deyərək şər atırdı,
Qartala Qara Qarğa.
Böhtanlar yayırdı o,
Hər gün arana-dağa...

Nədi-nədi dərədən
Tapılmışdı...
                    bir lələk.
(Onu ora bir zaman,
Atıbmış güclü külək!...)

## ŞAMPAN ŞƏRABI

Süfrədə lovğa-lovğa,
Dindi Şmpan Şərabı:
(Ona çox dar gəlirdi,
Nədənsə də öz qabı.)
- Şərabların şahıyam,
Sirkədən də tündəm mən.
Vulkan tək püskürərəm,
Bircə himə bəndəm mən!..

Elə bu an açdılar,
Onun dəmir bağını.
O, kənara tullayıb,
Özünün qapağını -
“Azadlıq!”- deyib coşdu.
Qəzəblə köpükləndi,
Hirs ilə aşıb-daşdı.
Bununla da sanki o,
Taledən qisas aldı.
Qabındasa bir ovuc,
Köpüklü şərab qaldı...

## İYNƏ –DÜYMƏ

-Sapı işdən çıxartdım! –
Deyirdi, sapsız İynə.
-Pencəyi işdən qovdum! –
Söylədi, düşmüş Düymə...

## GİCİTKƏN

Gicitkanı görəndə,
Hamı dodaq büzürdü.
O, kimi dalamışdı,
Ondan uzaq gəzirdi.

Gözucu boylanırdı,
Ona acmış Dəvə də.
Uzunqulaq baxmırdı,
Dadına bir dəfə də.

Gürzə onun yanından,
Ehtiyatla keçirdi.
Sünbülqıran kökünü,
Qorxa-qorxa biçirdi.

... Hamı onu saysa da,
Bitkilərin namərdi, -
Gicitkan sağaldırdı
Neçə sağalmaz dərdi.

## "QƏHRƏMANLIQ"

Tutuquşu az qala,
Bir qəhrəman sayıldı.
Onun fədakarlığı,
Hər tərəfə yayıldı.
Onu göstərdi ekran,
Ondan danışdı efir.
Bütün quşlar hər yerdə,
Dünəndən onu sevir.
Dedilər: - Qəhrəmandır,
Bu quş anadangəlmə.
Baxın, ana dilində,

Danışıb o, üç kəlmə!..
**HÖRÜMÇƏK ZOOPARKDA**

Fil qəfəsi küncündə,
Tor qurmuşdu Hörümçək.
Birdən onun toruna,
Düşdü körpə bir Milçək.
Dedi: - İndi əlimdə,
Xortumlu nəhənglər var.
Bir baxın, qəfəsimdə,
Şirlər var, Pələnglər var!..

PƏRSƏNG

Nizamsız Tərəziyə,
Hər vaxt gərək olurdu.
Hesaba alınmırdı,
Çünki Pərsəng olurdu...

**ÇAQQAL "ÇAQQALLIĞI"**

Hamı Şiri Çaqqala.
Yaxın qohum bilirdi.
Çünki bu Çaqqalgildən
Nərə səsi gəlirdi.
Heyvanlar ehtiyatla,
Keçirdilər cığırdan.
Bir əsər qalmamışdı,
İndi çığır-bağırdan.
Hamı can atırdı ki,
Çaqqlala bir rast ola.
Hamı fürsət gəzirdi,
Çaqqal ilə dost ola...

Heyvanlar nə biləydi,
Çaqqalın hiyləsini.
O, lentə yazdırmışdı,
Toyda Şirin səsini.

## QARTAL VƏ "QARTALLAR"

Sərçə: - Qartalam! – deyib,
Öz döşünə döyürdü.
Qara Qarğa oğluna:
-Qartalımsan! – deyirdi.
Keçəl Qaz Dağlaroğlu,
Təxəllüsü seçmişdi.
Bəzgək Qartal yaşayan,
Qayalara köçmüşdü...

...Bunları görən Qartal,
Endirdi qanadını.
"Qartalların" xətrinə,
O, dandı öz adını.

## DAŞ VƏ QAYA

Zirvədən bir Daş qopdu,
Hər yan lərzəyə düşdü.
(Bu Daş həmin zirvəyə,
Əllə qoyulmuş Daşdı!..)
Gülləri tapdalayıb,
Ağacları biçdi o.
Çeşmələrin gözündən,
Bir ox kimi keçdi o.
Neçə təpə dağıtdı,
Kəsək dəldi, Daş dəldi.
Birdən...
            öz yolu üstdə,
Daş Qayaya rast gəldi!..

## KÜLƏK KƏLƏYİ

Sağa-sola qovurdu,
Külək dolu buludu.
Ağır-ağır uçurdu,
Dolmuş Dolu Buludu.
Bulud dəydi Buluda,

Göylər gur-gur gurladı.
Buludlar arasında,
Hey şimşəklər parladı.
Hər yanı döydü Dolu,
Qönçəyə, Tumurcuğa,
Çiçəyə dəydi Dolu...

... Göydə Günəş güldükcə
Fikirlər çözələnir:
- Göylər qəzəblənəndə,
Niyə yer cəzalanır?!

## TAY TƏKƏR

Öz oxundan çıxraq,
Təkər getdi uzağa.
Dostlarından ayrılıb,
Getdi xeyli qabağa.
Dedi: - İndi keçərəm,
Dərələrdən sel kimi.
Qanadlanıb uçaram,
Təpələrdən yel kimi.

... Kiçik Daşa toxunub,
Yolu çaşdı tay təkər.
Sola-sağa burulub,
Birdən aşdı Tay Təkər...

## İT VƏ MOTAL

Motalı hər görəndə,
Ağzından axırdı su.
Coşub-daşırdı İtin,
Pendir yemək arzusu.
Bir gün fürsət tapıb o,
Parçaladı Motalı.
(Motal şor Motalıymıs,
Çox pozuldu əhvalı!..)
Bir az baxıb dadına,
Oldu onu atası.
Elə bu vaxt Motala,
Keçdi... Onun xaltası.

Motal isə bu işi,
Əsla açıb-bükmədi.
“İt ondan əl çəksə də,
O, İtdən əl çəkmədi”.

## TAR VƏ KAMAN

Yeni hava üstündə,
Köklənsə də bir Kaman,
Sızlayıb düşdü kökdən,
Ona əl vuran zaman.
Tar söylədi: - Əzizim,
Bu nə kökdü düşmüsən?!
Söylə, sənə nə olub,
Niyə kökdən düşmüsən?!
Bir ah çəkdi bu Kaman, -
Sinəsi qalxıb-endi.
Çox yanıqlı-yanıqlı,
Sızıldadı...
Və dindi:
- Yoldaşlıq eləmişəm,
Gitaraya, Orqana.
Qulağımı bururdu,
Tez-tez hərə bir yana.
Qarmonlara dəm tutdum,
Zurnalara züy tutdum.
Öz həzin nəğməmizi,
Mən günbəgün unutdum...

## NAMƏRD KÖRPÜSÜ

Çaqqal bir körpü saldı,
Ensiz, kiçik bir çaya.
Söylədi: - Kim istəsə,
Gəlib keçsin o taya.
...Fil körpüdən keçəndə,
İşlədərək fəndini,
Çaqqal qırdı bir anda
Körpüsünün bəndini.
Fil itirib özünü,
Körpüdən çaya aşdı.
Su onu aparmadı,

Daşıb üstündən aşdı.
Fil dedi: - Namərdsənmiş,
Tanımadım mən səni.
Bilsəydim heç keçməzdim,
Aparsa da sel məni...
Bunu deyib aramla,
Sudan çıxdı qoca Fil.
Çaqqalı öz qoynuna,
Alaraq apardı sel.

## ÇƏKİ DASI

-Qızıla bərabərəm!-
Deyirdi kəlmə başı.
Adi daş olduğunu
Danırdı Çəki Daşı...

## KÜT BIÇAQ

Bir sap kəsə
Bilməyən
Küt Bıçaq.
Bu gün dönüb
Olmuşdu
Çox “qoçaq”.
Kəndirləri
Kəsirdi
Çox səylə.
Görüşmüşdü
Çünki o,
Bülöylə!..

## DİRƏK

Çoxdan idi torpağa,
Sancılmışdı bir Dirək.
Çoxdandır ki, heç kəsə,
Olmamışdı o gərək.
Bir gün dirrik əkdilər,
Dirək olan torpağa.

Sevindi ki, qurtarar,
Tənhalıqdan o, yaxa.
...Ona Lobya sarıldı,
Sarmaşıqlar sarmaşdı.
Dirək dözə bilmədi, -
Dirək yerindən aşdı...

## ADAŞ

Arx Çaya yaxınlaşıb,
Söylədi yaaş-yavaş:
-Yolunu azıbsansa,
Gəl, mənə qoşul, adaş.

## ƏJDAHA HEYKƏLİ

Mumdan heykəl yapdılar, -
Bir əjdaha heykəli.
İlanlar baxdı ona,
Çox hikkəli-hikkəli.
Dedilər: - Yer üzündə,
Bu boyda ilan olar?!
Onun yeddi başı var,
Belə də yalan olar?!

...Günəş şəfəq saçanda,
Şübhələri çəkildi.
Bu nəhənglər nəhəngi,
Əriyərək töküldü...

## ARXALI MİSMAR

Burğu güldü:
-Deməyin,
Divar dələndir Mismar.
Axı, onun Çəkic tək,
Möhkəm bir arxası var!..

## DƏYİŞMƏ

On il idi bir Qələm,
Qara rənglə yazırdı.
On il idi bu Qələm,
Bu ahənglə yazırdı.
Bu gün birdən dəyişib,
O, qırmızı olmuşdu.
Zünki bu gün qırmızı,
Mürəkkəblə dolmuşdu...

## KİBRİT ÇÖPÜ

Papirosu yandırıb,
Dayandı bir anlığa;
Kirit Çöpü sönməmiş,
Atıldı samanlığa.
Gözündə parıldadı,
Son ümidi bir anlıq.
Bircə közdən alışdı,
Başdan-başa samanlıq!..

## YAY –OX

Yay hara tuşladısa,
Ox uçdu o tərəfə.
Gah milləndi göylərə,
Gah sancıldı hədəfə.
Bir gün Yay çox gərildi,
Yenə də başdan-başa.
Hədəfdən yan ötərək,
Ox birdən dəydi daşa...

(Ancaq bu an ətrafda
Görünmürdü Yay gözə.
Çünki Oxu ataraq,
Gizlənmişdi Yay özü!..)

## NAĞARA

Bir ahənglə çalmırdı,
Bu gün qoca Nağara.
Başladığı nəğməni,
Vurammırdı axıra.
Məzəmmət etdi onu,
Alətlər bir ağızdan.
(O da giley elədi,
Tardan, Qarmondan, Sazdan...)

Alətlərə bəlliydi,
Ancaq bu işin sirri.
Yamanca boşalmışdı,
Nağaranın kəndiri...

## MİLÇƏK ADƏTİ

Arını göstərərək,
Milçək dedi ərinə:
- Adını ər qoyubsan?! –
Utanıram yerinə;
Sən yaman tənbəl ərsən.
Qonşun Arıya baxıb,
Bir gözünə su ver, sən.
Gözəlçə arvadına,
Çiçəklərdən bal yığır.
Məni öldürəcəkdir,
Bu dərdlər əvvəl-axır...
Milçəyin bu tənədən,
Qəlbi alışıb-yandı.
Qanad açdı güllüyə,
Yolda zibilə qondu.

## SƏRXOŞLUQ

Uzunqulaq görərək,
Yaxında bir dirriyi.
Bir xeyli cəhd edərək,
Dartıb qırdı hörüyü.
Şüyüdü, vəzərini,
Pomidoru yedi o.

Zəfəranı tapdayıb,
Çuğunduru yedi o.
İki lək xaşxaşı da,
Yedi... yedi axırda.
Sonra sərxoş olaraq,
Gedib yatdı axurda.

## DARAQ

Seyrək saçı darayıb,
Lovğalandı bir Daraq:
- Neçə ildir Beyini,
Açıram varaq-varaq.
Mənsiz bir an düşünüb,
Başlıq edə bilməz Baş.
Mənsiz fikrin içində,
Beyin də qalar çaşbaş...

Bir gün saçlar töküldü,
İş qalmadı Darağa.
Onu Cibdən çıxarıb,
Atdılar bir qırağa.

## ÇAQQAL RƏHBƏRLİYİ

Bir meşədə Çaqqalı,
Müdir seçdi heyvanlar.
Onun yaxşı işinə
Ümid edirdi onlar.
İki həhtə keçməmiş,
O dəyişdi ahəngi.
Çıxardı müavinlikdən,
Səriştəli Pələngi.
Həmin yerə Tülkünü,
İrəli çəkdi Çaqqal.
Dedi: - Tülkü, meşədə,
Ağsaqqaldır, ağsaqqal...
Tülkü tülkülük ilə,
Bir tor qudurdu Şirə.
Ləkə yaxdı Ayıya,
Ləkə yaxdı Bəbirə.
Səhlənkarlıq üstündə,

Töhmət verdirdi Filə.
Fermanın lap yanında,
Qurdu Boz Qurdu tələ...

... Bir sözlə bu meşənin,
Çaqqal idi rəhbəri.
Meşə Çaqqalsız idi.
Uzun illərdən bəri!..

## ÇAQQAL

İxtisara saldılar,
Çaqqalın ştatını.
Meşədən düz fermaya,
Çapdı Çaqqal atını.
Gah quzu parçaladı,
Gah toğlunu yedi o.
Ancaq ələ keçəndə, -
Canavaram! – dedi o...

Hamı Qurdu qınadı.
(Atalar yaxşı deyib!..)
"Çaqqal var qoyun udur,
Bədnamdı Qurdun adı..."

## TUTUQUŞU

Qartal kimi qıy vurdu,
Zənn etdilər Qartaldı.
Bülbül kimi oxudu,
Hamı ona mat qaldı.
Qarğa kimi deyindi,
Meymun kimi güldü o.
İnsan kimi danışıb,
Hərdən dilə gəldi o.
Onun-bunun dilində,
Danışaraq hər zaman –
Yadından çıxarmışdı,
Öz dilini o tamam...

Çox asan yamsılayır,
Hər heyvanı, hər quşu.
Bu işdə çox mahirdir,

Tutuquşu,Tutuquşu.

**ƏLÜZYUYAN**

Öz gözünün yaşıyla,
O, əlləri yuyurdu.
Əllər isə birləşib,
Özü Üzü yuyurdu...
O, səliqə simvolu,
Adi əlüzyuyandır.
Paklıq nümunəsidir, -
Adı Əlüzyuyandır...

**QASTROL**

Qastrola çıxmışdı,
Meşə quşları yenə.
Afişalar vuruldu,
Hər fermaya, hər hinə.
Dedilər: - Hazırlanıb,
"Bir yeni repertuar".
Hinlərdən hey gəlirdi,
Toyuqlar qatar-qatar.
"Truppa" təqdim etdi
"Rəngarəng" proqram.
Çox mahnılar oxundu, -
Hamısı "fonoqram".
Bülbülün nəğməsini,
İfa etdi Yapalaq.
Bayquş "solo" oxudu,
Mikrofonu qaparaq.
Diktor dedi: - Yeni bir
Nəğməyə qulaq asın;
- Sözlər Tutuquşunun,
Müsiqisi Boz Qazın.
Oxuyur Tovuzquşu.
Çalır Ağacdələnlər!!.

Siz deyin bu konsertdən,
Nə həzz oldı gələnlər?!

**KORAMAL**

Koramal gözünə bir eynək taxdı,
Mənalı-mənalı ətrafa baxdı.

Sürünə-sürünə çıxdı yuvadan,
- Gözlükü ilanam! – dedi ucadan.
Məni görsə batar Gürzənin dili,
Zəhərim bir anda öldürər Fili...
Kərtənkələ dedi gülərək ona:
- Nə tez dönük çıxdın sən öz adına?!
Bu yalan sözləri alma dilə sən,
Axı sən də cılız Kərtənkələsən,
Kərtənləsən!..

**BUQƏLƏMUN**
Səhər oldu – saraldı,
Axşam oldu – qaraldı.
Gah bozardı,
Gah göyərdi.
Gündə neçə rəng alırdı,
Gündə neçə don geyirdi.
Budaq üstdə görünmürdü;
Elə bil ki ölü idi, -
Tərpənmirdi, sürünmürdü.
Bir gözüylə Mığmığanı
izləyirdi,
Bir gözüylə başqa şikar
gözləyirdi.
Yapışqanlı dili vardır.
Dili ilə ov eləyir.
Yanından bir cücü uçsa,
Bircə anda yox eləyir.
Gün ərzində o, girsə də
dondan-dona,
Şübhə ilə baxmamışdı
heç kəs ona.

Cilddən-cildə düşməkdə,
Harda tayı var onun?!
Bu işin ustasıdır,
Buqələmun,
Buqələmun...

**EHTİYATLI ZÜRAFƏ**
Yuxarıdan təhlükə,
Gözləyirdi Zürafə.
Həmişə səksəkəylə,

Baxırdı dörd tərəfə...
Bir gün yenə üfüqə,
O dikəndə gözünü,
Canavar birdən gəlib
Parçaladı dizini...

**YAY QƏZƏBİ**

Polad Yayı burdular, –
Yay buruldu buranda.
Polad Yayı sıxdılar, -
O sıxıldı bir anda.
Dedilər: - Yumşaqlıqda,
İpək ona tay olmaz.
Yayların arasında,
Belə yumşaq Yay olmaz!..

Bir az artıq sıxanda,
Aşıb-daşdı qəzəbi.
Yükü atdı kənara,
Yay əsəbi-əsəbi...

**POLAD**

Çox yüngül görmüşdü,
Ağır görmüşdü.
Polad, polad kimi ömür sürmüşdü.
Çəkiclər, zindanlar Onu döysə də,–
Döyülməmişdi.
Nə qədər çətinə, dara düşsə də
Əyilməmişdi.
Tez-tez yağlanırdı,
O islanmırdı.
Həm də işləyirdi,
Heç paslanmırdı...

...Yağışda islandı, suda islandı;
Xeyli işiz qaldı,
Polad paslandı.
Kürəyə qoydular, –pul kimi qızardı –
Polad döyüldü.
Körük nəfəsiylə, gürz zərbəsiylə
Polad əyildi.
Çünki artıq o, Polad deyildi!..

## YARASA

Yarasa Ayı görüb,
Söylədi öz-özünə:
- Heç belə də iş olar,
Heç belə Günəş olar?!
Özü yenə gizlənib,
Ayı salıb izimə.

...Yüz Ay ola, yüz Günəş,
Yarasayam, Yarasa.
Ayı da qovacağam,
Bu gün-sabah harasa!..
Ancaq bu lovğa heç vaxt,
Baxammırdı Günəşə.
Qaranlığa qaçırdı,
Gün çıxanda həmişə...

## ŞİBYƏ

Bir Göbələyə
Yanaşıb Yosun,
Açdı qəlbini
O, xısın-xısın:
-Bir-birimizdən
Gəl, biz güc alaq.
Birgə yaşayaq,
Birgə ucalaq...
Sövdələşdilər
Və... birləşdilər.
Onlar bir anda,
Oldu müştərək.
Nə Yosun oldu,
Nə də Göbələk.

Birlik deyə-deyə,
Onlar birlışib
Oldular Şibyə,
Oldular Şibyə...

## SAYQAC VƏ KOMPYUTER

Gəldi mühasibata,
Kompyuter təyinatla.
Özünü təqdim etdi,
Sayqaca eytuyatla.

Yeni kadrın gəlməsi,
Məyus etdi Sayqacı.
O, təpədən-dırnağa,
Süzdü onu qıyqacı.
Söylədi: - Gəl sabahdan,
Başla yanımda işə.
Zəngin iş təcrübəmi,
Öyrənərsən həmişə.

...Kompyuter ədədləri,
Toplayırdı bir anda.
Çox dəqiq göstərirdi,
Nəticəni ekranda.
Sayqac bütün bunlara,
Şübhə ilə baxırdı.
Nəticəni yenidən,
Toplayırdı, çıxırdı.

## ÖZÜNÜSEVƏN MEYMUN

“Gözəllik” salonundan,
Bəzənib çıxdı Meymun.
Xeyli baxıb güzgüyə,
Özündən oldu məmnun.
Söylədi: - Gözəllikdə,
Heç kəs olmaz tay mənə.
Həsrət çəkir Gün mənə,
Həsrət çəkir Ay mənə.
Gözəllik timsalıyam,
Məni tək doğub anam.
Mən adi Meymun deyil,
İnsanabənzər Meymunam!..

## QARĞA TAMAHI

Hər budaqdan bir-iki,
Qoz dərdi qorxa-qorxa.
Buludun kölgəsinə,
Gizlətdi qoca Qarğa.
Dedi: – Hələ qarşıda,
Neçə-neçə illər var.
Nədir qozun zərəri,
Nə vaxtsa gərək olar!..

Getdikcə güclənirdi ,
Qoz toplamaq həvəsi.
Göz önünə gəlirdi,
Oğlu, qızı, nəvəsi...

Ancaq birdən küləklər,
Qovdu,
qovdu buludu.
Qarğa qozu tapmadı,
Qoz bitib ağac oldu.

## QARTALLIQ EDƏN QARĞA

Yarağanın qırağına,
Qışda qondu bir Qarğa.
Qartal kimi boylanıb,
Söylədi lovğa-lovğa:
- Bura Qartal qalxammaz,
Belə qarda, boranda.
Ancaq mən bu zurvəni,
Fəth elədim bir anda.
Qar, qar üstə qalnıb,
Qar qarşını kəsibdir.
Yolda neçə Qartalın,
Qanadları əsibdir.
Qoy eşitsin qarğalar,
Yerim göylərdir mənim.
Mən qağlar qartalıyam,
Zirvələrdir məskənim.
Bu dağlarda ötüşür,

Yüz ildir ki həyatım.
Zirvələrdə bərkimiş,
Mənim qolum-qanadım...

Yazda zirvədən axıb,
Sel uçurtdu yarağanı.
Qaya ilə birlikdə,
Su apardı Qarğanı.

## TAMAHKAR TƏRƏZİ

Əyrilik eləyəndə,
Yaxalandı Tərəzi.
Onu ələ vermişdi
Tamahkarlıq mərəzi.
Tərəzilik dövrndə.
Çox kələklər görmüşdü.
Çox arvalar görmüşdü,
Çox pərsənglər görmüşdü.
Yun çəkmişdi daş kimi,
Un çəkmişdi daş kimi.
Neçə saxta yükləri,
O, çəkmişdi düz kimi.
Deyirdi: - Mən hər zaman,
İnanmışam daşlara.
Yoxsa, əyrilik hara,
Deyin Tərəzi hara?!

Tərəzi daş ataraq,
Tuturdu öz başını.
Cinayətkar sanırdı,
O, öz Çəki Daşını...

## SARMAŞIQ VƏ QARPIZ TAĞI

Bostanda Müqəvvaya,
Sarılaraq Sarmaşıq,
Qarpız tağına dedi:
- Biz doğmaca qardaşıq.
Görürsən, mən göylərə,
Ucalıram günbəgün.
Gəl, səni də ucaldım.
Bəsdir daha süründün!..

Qarpız tağı söylədi:
- Nə vaxtdan biz qardaşıq?!
İşin, əməlin bəlli,
Sarmaşıqsan, Sarmaşıq!
Deyirsən, sürünürəm? –
Xeyr, mən yaşayıram.
Öz qarpızlıq adımı,
Şərəflə daşıyıram.
Dayaqlara sarılıb,
Ucalsan da zirvəyə,
Ömrün boyu bir fayda,
Vermisənmi kimsəyə?!

## KƏLƏF

Düyçə-düyçə böyüyüb,
İp döndükcə Kələfə -
Əlvan rəngə boyanıb,
Səs yaydı hər tərəfə:
- Gərək yaxın zamanda,
Böyük yumaq olam mən.
Tarixlərə yazılıb,
Yaddaşlarda qalam mən!..

...Yumaqlanıb cəhd ilə,
Öz həddini o, aşdı.
Arzusuna çatmamış,
Düyün düşüb dolaşdı.

## BIÇAQ, BIÇAQ HAQQINDA...

Cib  Bıçağı haqqında,
Deyirdi Yağ Bıçağı:
- Bıçaqlıq etdiyini,
Görməmişik açığı.
Nə çörək dilimləyir,
Nə də pendir kəsir o.
Əzəldən tüfeylidir,
Hey ciblərdə gəzir o.
Onun işi, əməli,
Bülövə də bəllidir.
Həmişə örtülüdür,

O, həm də çoxdillidir...
Ancaq Yağ Bıçağının
Artıq idi təşvişi.
Cib Bıçağı görürdü,
Hər diliylə bir işi...

## KƏNDİR

Caladılar Kəndiri,
Uzatdılar bir xeyli.
Doğanağa, İlgəyə,
Daha olmadı meyli.
O dolanıb Ağaca,
Tapdı yeni bir dayaq.
Doğanaqdan keçmədi,
Keçdi ona Doğanaq...

## DƏVƏQUŞU VƏ DƏVƏ

Dəvə səhrada gördü,
Bir gün Dəvəquşunu.
Çox mənalı-mənalı,
Yırğaladı başını.
Dedi: - Quşlar içində,
Sən hamıdan qəşəngsən.
Özümə oxşayırsan,
Mənim kimi nəhəngsən.
Sənə yaxşı yaraşır,
Mənim dəvəlik adım.
Kaş... mənim də olaydı,
Bir cüt xırda qnadım!..

## ARIQUŞU

- Arıların dostuyam! –
Deyirdi Arıquşu.
Qoymurdu yaxın uça,
Pətəyə ayrı quşu...

Yalnız Arı olsa da
Onun sözü-söhbəti;
Özü tutub yeyirdi,
Arıları xəlvəti...

## XƏTKEŞ VƏ PƏRGAR

Xətkeş kömək edirdi,
Hər an dosta-tanışa.
Düzgün yol göstərirdi,
Neçə küt Karandaşa...
Pərgarınsa var idi,
Qəribə bir adəti.
Tez çevrəyə salırdı,
O, nöqtəni, düz xətti...

## TABAŞİR YAZISI

Lövhəyə çevirərək,
Tabaşir öz üzünü,
Söylədi: - Qayaya da,
Yazaram öz sözümü.
Əsrlər gəlib ötsə,
Bir izim də pozulmaz.
Göydən alov yağsa da,
Təravətin azalmaz!..

...Elə bu an yarımçıq
Qaldı onun kəlməsi.
Silgiylə silinmişdi,
Artıq yazı Lövhəsi.

## ARTIQ TAMAH

Tülkü oyandı
Xoruz banında.
Gəlib dayandı,
Çəpər yanında.
Gəzdi ətrafı,
O, sinə-sinə.
Su gilifindən
Yol tapdı hinə...

O, bürünsə də
Min bir kələyə,
Elə gilifdə

Düşdü cələyə...

**YALANÇININ ŞAHİDİ**

Qulaqlar dedi: - Gözlər,
Bizdən alır nurunu.
Biz olmasaq görməzlər,
Onlar, hətta Burunu...

...Eynəyi şahid çəkib,
Qulaqlar and içirdi.
Çünki Eynək özü də,
Qulaqlardan keçirdi.

**"BƏXTSİZ QURBAĞA"**

Qurbağa bataqlıqda,
Söyləyirdi Durnaya:
-Vaxtında gəlməmişəm,
Mən bu qaca dünyaya.
Məndən xeyli əvvəllər,
Yazılıb bütün şerlər.
Dağda, bağda, meşədə,
Tutulub bütün yerlər.
Ən yaxşı nəğmələri,
Çoxdan qoşub bülbüllər.
Ördəklərə qalıbdır,
Səfalı, sulu göllər.
Artıq hamı düşübdür,
Məndən, məndən qabağa...

...Beləliklə, bəxtindən
Gileyliydi Qurbağa...

**ÖRDƏK ARZUSU**

İlqarını pozaraq,
Rədd etdi Çöl Qazını.
Doxsan yaşlı Qartala,
Verdi Ördək qızını.
İstədi ki, özü də,
Köçüb dağda yaşaya.
Sonra dönüb o, Qartal,

Familiyası daşıya...

## DAĞ VƏ OKEAN

Dağ baxıb Okeana,
Fəxr edirdi hər zaman:
-Mənim doğma balamdır,
İlk oğlumdur Okean!..
Okean qəzəblənib,
Danladı uca Dağı:
- Bircə damla suyunu,
Nə vaxt gördüm mən, axı?!
Mənim geniş sinəmdə,
Balinam var, Morjum var.
Nə vermisən sən mənə,
Söylə, sənə borcum var?
Dağ dedi: - Mən olmasam,
Sən Okean olmazsan.
Bomboş dərə olardın,
Ömrün boyu dolmazdın!..

## ŞORANLIQ İSTƏYİ

Dedilər: - Şoranlığı,
Laləzara döndərək.
Ora cavan Palıdlar,
Şöy Çinarlar göndərək!..
Şoranlıq dedi: - Onlar,
Çətin ki, uyğun gəlsin.
Onları bəyənmirəm,
Göndərin Yulğun gəlsin!..

## SOVKALARIN DİLƏYİ

Pambığın qozasını,
Çiçəyini yeyirdi.
Sonra yorğun səs ilə,
Sovka belə deyirdi:
-Gecə-gündüz tarlada,
İşləməkdən bezmişəm.
İstiyə də dözmüşəm,

Soyuğa da dözmüşəm.
Səpirlər başımıza,
Dərman da dönə-dönə.
İpəkqurdu çəkilir,
Yenə də bizdən önə.
Əzəldən tüfüylidir,
O, addım da atmayır.
Hördüyü baramadan,
Özü də baş açmayır...

Sovkaların həyatda,
Yalnız buydu diləyi:
- Kaş gözdən salaydılar,
Baramanı, ipəyi...

## KƏRTƏNKƏLƏ İSTƏYİ

Səhər öz kölgəsinə,
Baxaraq Kərtənkələ,
Özündən razı halda
Söylədi gülə-gülə:
-Mənim nəyim əskikdir,
Deyin, axı, Timsahdan?!
Timsahlıq edəcəyəm,
Mən də günü sabahdan!..

## DANADİŞİ

Danadişi haqqında.
Danışırdı Köstəbək:
-Onun təcrübəsini,
Qəbul edək biz gərək.
Gözəl duyur torağı,
Yaxşı bilir işini.
Dirriyə rəis qoyaq,
Gəlin, Danadişini.
Tezbitən şitil haqda,
Elmi iş də yazıbdır.
Dirriyi qarış-qarış,
Başdan-başa gəzibdir...

Danadişi başladı,
Həvəslə öz işinə.

O, dönük çıxmamışdı,
Öz köhnə vərdişinə.
Gah havada uçurdu,
Gah da suda üzürdü.
Bir şitil əkməmişdi,
Şitilləri kəsirdi...

**BÖV VƏ ƏQRƏB**

Böv söylədi Əqrəbə:
-Mənasız yaşayırsan!
Sən əqrəblik adını,
Yarıtmaz daşıyırsan!
Hörümçək öz ovunu,
Gizlənib salır tora.
Sən onu tanıyırsan, -
De, sən hara, o hara?..
Əqrəb dedi: - Mənim də,
Həyatda var öz yolum.
Ömrüm boyu heç kəsə,
Olmamışam mən zalım.
Nə qalın tor qururam,
Nə zəhərli dişim var.
Qarışqayla, Milçəklə,
Böcəklə nə işim var?!

Ancaq o, xəlvət-xəlvət,
Ov dalınca qaçırdı.
Üzə gülüb, atxadan
Quyruğuyla sancırdı...

**LOVĞA ÇAYDAN**

Ocağın üzərində,
İsindikcə anbaan,-
Özündən razı-razı,
Söyləyirdi bir Çaydan:
- Mən vulkan övladıyam,
Vulkan kimi coşaram.
İstəsəm selə dönüb,
Qayalardan daşaram...
O xeyli buxarlandı,
Sonra suyu qaynatdı.

Lovğa-lovğa püskürdü,
Qapağını oynatdı.
 ...Lüləyindən tökürdü,
Hirsini, acığını.
Sonra daşıb, söndürdü,
Öz yanar ocağını...

## PASLI İYNƏ

Paslı İynə dərini,
Asanlıqla tikirdi.
Üstəlik öz ardınca,
Uzun Sap da çəkirdi.
Bir anda qabaqladı,
O, ustası Qıyığı.
Qalın çəkmə üzünü,
Tikdi ipəksayağı.
Neçə Yorğan İynəsi,
Ona heyran qalmışdı.
Hamının sevimlisi,
Paslı İynə olmuşdu.

Ancaq Qıyıq bilirdi,
İynənin əməyini.
O, çox yaxşı görürdü,
Üsküyün kməyini.
(Ona rahat yol açan,
Bizlərin köməyini!..)

## ALAQOTU VƏ QURD

Bahar çağı dirriyə,
Gələrək Kələmqurdu,
Alaqotu üstündə
Özünə yuva qurdu.
Dedi: - Qardaş, dünəndən,
Düşübdülər izimə.
Gəl mənə havadar ol,
Yoldaş elə özünə.
Alaqotu boy atıb,
Büründü əlvan dona.
Yarpağını açaraq,

Rahat yer verdi ona...
Bir gün Alaqotunu,
Ketmən gördü dirikdə.
Onu kəsib tulladı,
Dostu Qurdla birlikdə...

## BİBƏRLƏR

Acı Bibər böyüyüb,
Məhsul verəndən bəri
Nədənsə dərməyirdi,
Heç kəs Şirin Bibəri.
...Yay keçdi, payız ötdü,
O, qocalıb, qarıdı.
Neçə-neçə meyvəsi,
Budağında qurudu.
Düşüncələr içində,
Keçirirdi vaxtını.
O, təqsirkar bilirdi,
Taleyini, bəxtini...

Onun lap körpəlikdən,
Olmasa da acısı;
Neçə dil yandırmışdı,
Onun acı bacısı.

## SAÇ

Saç rənglənib daranırdı
son modayla.
Ətirlənib fəxr edirdi
öz adıyla.
Söyləyirdi: -Yağışışdan da
qorxmuram mən.
Yüz il yansa Günəşdən də
qorxmuram mən...
Dara düşsəm,
Qanadını açar Çətir.
Köməyimə çatar Çətir,
Çatar çətir!..

## BÜLBÜL VƏ KƏPƏNƏK

Bülbül Kəpənəyi
Görüb sevindi.
Onu salmlayıb,
Sevinclə dindi:
-Bağda açılbdır
Gül qucaq-qucaq.
Hər yana yaz gəlib,
Gəl, uçaq, uçaq.
Gözəllik bəxş edək,
Bağa, bostana...
Kəpənək söylədi,
Kədərlə ona:
-Mənə xoş gəlməyir,
Nə bağ, nə dirrik.
Çəməni buraxıb
Hara gedirik?!
Orda hamı mənim
Xətrimə dəyir.
Orda hamı mənə
Həşarat deyir...

## “3” və ÜÇ

Qələm hey deyirdi: - “3”
Adı kimi zərifdir.
Həriflərin içində,
O ən gözəl hərifdir.
Pozan söylədi: - Onu,
Yanımırsan hələ sən.
Tərifə çox tələsmə -
Tərsə düşər tələsən.
Gah “3” olur, gah da “üç”,
Başdan-başa mömrədir...
Mən onu pozmalıyam,
Bu, Sayqacın əmridir!..

## LOVĞA TISBAĞA

Arvadı danlayırdı
Tısbağanı hər zaman:

-Baxıb nümunə götür,
Sən də Kirpi qonşundan
Çanağı olmasa da,
İlanı da tutur o.
Bircə göz qırpımında,
Koramalı udur o...

Tısbağa dedi: - Olsa,
Məndə onun tikanı,
İnan tutub udaram,
Timsahı, Gərgədanı...

## AKVARİUM

Böyük okeandan bir damlayam mən,
Mənim də qəlbimdə öz dünyam vardır.
Coşğun çayları da içmək istərəm,
Heyf ki, heyf ki mənzilim dardır!..

## DİBÇƏK

Mən Yer kürəsinin bir parçasıyam,
Sinəmdə yaşayır bahar da, yay da.
Məni böyütsələr çəmənlik ollam,
Bol məhsul verərəm torpağım sayda!..

## LOVĞA KÜRƏK

Kürək
        yumşaq torpağı,
Götürüb kürək-kürək
Söylədi: - Qayanı da,
Tezliklə sökəm gərək!..
Külüngü kənar edib,
Hücum çəkdi Qayaya.
İstədi  hünərini,
O, hər tərəfə yaya.

Elə ilkin həmlədə,
Onun ağzı yeyildi.
Axı, Qayanı sökmək,
Onun işi deyildi!..

## KÖRPÜ

Körpü iki sahili,
Qovuşdurandan bəri,
Xeyli artmışdı onun
Qayğısı, dərdi-səri.
Gah çəməndən meşəyə,
Çaqqal köçüb gəlirdi.
Gah meşədən çəmənə,
Ayı keçib gəlirdi...

Əgər körpü olmasa,
Görəsən olardı?
Yəqin meşə Çaqqalsız,
Çöl Ayısız qalardı...

## KƏRTƏNKƏLƏ SEVGİSİ

Kərtənkələ sevirdi,
Çəməndə bir İlanı.
Onu görüb salırdı,
İşə şirin dilini:
-Səndən ötrü dərimi,
Dəyişib yaşıl ollam.
Lap istəsən daşlıqdan,
Köçüb mən sizdə qallam,
Bil ki sənin yolunda,
Canımdan da keçərəm.
Atamdan da keçərəm,
Anamdan da keçərəm...

Müqəddəs məhəbbətə,
Ürəkdən and içirdi.
O, canından keçmirdi,
Quyruğundan keçirdi...

## İYNƏ VƏ SAP

Sap deyirdi: - İynəni,
Mənəm,
mənəm saxlayan.
Mənəm onu yaşadıb,

Bu həyata bağlayan...
Ancaq iş tapşıranda,
Parçaya dirənirdi.
O, hər yerdə İynənin
Ardınca sürünürdü.

## CANAVAR KƏLƏYİ

Ağzıqara Canavar
Bürünərək kələyə,
Günahsız bir Dovşanı,
Qovub saldı tələyə...

Tələdən çıxmaq üçün,
Dovşan əlləşdi xeyli.
Hay-haray salmağın da,
Olmadı ona xeyri.
Canavar dedi: - Səni,
Buraxıram,
ancaq
sən,
Fermadan yüz qoyunu,
Söylə ki, sən yemisən.
Dovşan akta sevinclə,
Bir anda inza etdi.
Canavar da sevinclə,
Bir anda gözdən itdi...

Dovşan nə biləydi ki,
Qurdun var yüz oyunu.
Dovşanın ayağına,
Yazdılar yüz qoyunu.

## ÇÖMÇƏ VƏ KƏFKİR

Acgöz Çömçə, saymırdı,
İş yoldaşı Kəfkiri.
Bir dolu Qazandaydı,
Gecə-gündüz fikiri.

...Bu çömçə, çömçə-çömçə,
Boşaldırdı Qazanı.
Bir ovuc düyü idi,
Kəfkirin də qazancı...

## ŞAQUL

Xeyli tərifləndilər,
Bir Divarı Şaqula.
O, hördüyü Divarı,
Tanımadı az qala...

Malalanıb, rənglənib,
Divar üzə gülürdü.
Ancaq o, bu Şaqulu,
Özünə yad bilirdi...

## QARĞI

Dəmir Dirək yerində,
Durmaq istədi Qarğı.
Ağırlığı duyanda,
Canına düşdü qorxu.
Dirəklərə boylanıb,
Qəzəbi aşdı-daşdı.
Birdən... sınıb yıxıldı, -
Gördülər içi boşdur...

## QOHUMLAR

Bir yerə toplaşmışdı,
Bu axşam çoxlu Kirpi.
Alovlu danışırdı,
Meşəli oxlu kirpi:
- Dərdinizi çəkməkdən,
Ürəkdə yağ qalmadı.
Ona-buna atmaqdan,
Dərimdə oz qalmadı.
Ayıya da atmışam,
Pələngə də atmışam.
Özümdən böyüyə də,
Nəhəngə də atmışam.
Bir qorxu duyan kimi,
Dönürsünüz yumağa.
Nə var ki sizin kimi,
Sürünüb yaşamağa...

Ancaq bu Oxlu Kirpi,
Bir şeyi unudurdu.
Onun bağ qohumları,
Gürzəni də udurdu!..

**ZƏLİ VƏ GƏNƏ**

Camışın yelnindən,
Tutmuşdu Zəli.
Gənə də yapışdı
                    üstəlik ona...
Zəli doyan kimi
                    ayrıldı ondan,
Gənə həm də saldı
                    xəstəlik ona...

**TÜLKÜ QUYRUĞU**

Tülkü fermadan,
                        Toyuq
Aparırdı hər axşam.
Ancaq ondan qalmırdı,
Nə bir iz, nə bir nişan...

...Axı, bu qoca Tülkü,
Öz işini bilirdi.
Saldığı hər izini,
Quyruğuyla silirdi.

**ƏLLƏRİN HİKMƏTİ**

Əllər kola əl çəkdi,
Cərcələr düzümləndi.
Kolluq dönüb bağ oldu,
Qoralar üzümləndi.

Əllər bağdan əl çəkdi,
Cərgədən aralandı.
Tezliklə bağ “dağ” oldu,
Üzümlər qoralandı...

## CIR ALÇA

Palıd ilə yanaşı,
Bir Cır Alça bitmişdi.
Qürurla danışmağı,
O bir adət etmişdi:
- Qorxum yoxdur tufandan,
Qorxum yoxdur doludan.
Ən yaxın qohumuyam,
Mən qocaman palıdın...

Kəsib yerə yıxdılar
Bir gün qoca Palıdı.
Meşənin kənarında,
Cır Alça tənha qaldı.
...Gecə göylər tutuldu,
Qorxutdu onu şimşək.
Dəymişi dura-dura,
Kalını tökdü külək...

## ÇÖMÇƏ

Örtülü qaynayırdı,
Qazan xeyli zamandı
Hələ heç kim bilmirdi,
O, dolumu Qazandı,
Yoxsa boşmu Qazandı.
Çömçə açıb qapağı,
Xeyli dolaşdı onda.
(Ara qatmaqda təkdir!..)
Qatdı onu bir anda.
Sonra ələ gələni,
O, beş boş qaba çəkdi,
O, beş Boşqaba çəkdi.

## TƏRƏZİ MƏRƏZİ

Ağır aldı,
Yüngül satdı.
Gah su qatdı,
Gah toz qatdı...
O, tapmışdı,
Sağalmayan

Bir mərəzi.
(Yoxdu özgə
Qəsd-qərəzi!..)
Düzgünü də
Eləmişdi
Səhv
        Tərəzi –
Səhv Tərəzi...

**XƏTKEŞ**

O, düz yol göstərmişdi,
Neçə dosta, yoldaşa.
İstiqamət vermişdi,
Çoxlu Küt Karandaşa.
Özü bir iz salmadı;
Ömür keçdi, gün keçdi.
Çoxları dəyişsə də,
O, əvvəlki Xətkeşdir,
O əvvəlki Xətkeşdir!..

**QONAQPƏRVƏRLİK**

Qarpız aparmaq üçün,
Ayı gəldi bostana.
(Elə orada çıxdı,
Dovşanların rastına.)
O, yolurdu tağları,
Hamı üşdü təşvişə.
Qoca Dovşan tez saldı,
Şirin dilini işə:
-Biz sənin kitabından,
Öyrəndik tum əkməyi.
Bostana qulluq edib,
Qayğısını çəkməyi.
Yeni elmi işindən,
Təcrübələr qoymuşuq.
Sənin təşəbbüsünü,
Bostanlara yaymışıq...

...Onlar “qonaq” Ayının,
Könlünü çox aldılar.
Qoltuğuna bir qarpız,
Verib,

yola saldılar.

**QALDIRICI KRAN**

Hamı qibtə edirdi,
Qaldlrlcl Krana.
Axı, çox tənbəllərin,
Gəlmişdi o, karına.
Divar üstə çəkmişdi
Neçə dostu, yoldaşı.
Lap dama qaldırmışdı,
Lazımsız Qara Daşı.
Xoşuna gəlməyəni,
Dilucu dindirirdi.
Qaldırdığı kimi də,
Alçağa endirirdi...

**ÇƏLLƏK**

Boş Çəllək yanıqlıydı,
Bəxtindən, taleyindən.
Artıq hamı bezmişdi,
Ahından, gileyindən:
-Vaxt var idi şərabla,
Ağzımacan dolurdum.
Vaxt var idi hamının,
Sevimlisi olurdum.
İndi isə heç mənə,
Bir su da tökən yoxdur.
Çəlləklər sırasında,
Adımı çəkən yoxdur...

Ancaq bu boş Çəlləyin,
Etibarı itmişdi.
Şərab çatdaq dibindən,
Axıb yerə getmişdi...

**RƏNDƏ**

Neçə kobud Taxtanı
Yonub düzəltdi Rəndə.
Ancaq taxtalar onu,
Bəyənmirdi dinəndə:
- O da adi Taxtadır,
Bizimlə nə işi var?!
Bizi yonub üzəcək? –

Nə olsun ki dişi var...

**BÖYÜDÜCÜ ŞÜŞƏ**

O, atlı Qarışqanı,
“Böyüdür” Maral boyda.
Adi Yaşıl Miçəyi,
“Eləyir” Qartal boyda.

...Xırda şeyi böyütmək.
Onda adi peşədir.
Onu siz də tanıyin –
Böyüdücü Şüşədir,
Böyüdücü Şüşədir...

**AŞSÜZƏN**

Sirr saxlamaqda,
Su Aşsüzəni,
Çox möhkəm bilib
Axdı üstünə.
Ancaq bir anda
Aşsüzən onu
Yüz yerə bölüb,
Durdu qəsdinə...

**YAMAQ VƏ PƏRSƏNG**

Köhnə dostu Yamaqla,
Görüşən kimi Pərsəng,
Tez başladı qeybətə
Dərindən ah çəkərək:
-Neçə-neçə Tərəzi,
Möhtac qalıbdır mənə.
Qızılla birgə məni,
Çəkiblər dönə-dönə...
Yamaq dedi: -Əzizim,
Mən də əsl bəzəyəm.
Paltarlar köhnəlsə də,
Mən həmişə təzəyəm.
Əyri Tərəzilərin,
Sökülmüş paltarların,
Bizsiz ötməz işləri.
Yer üzünü doldurar,
Yaraşıqsız paltarlar.
Yüngül çəki daşları....

...Ancaq onlar bilmirdi,
Pərsənglə əsl daşın,
Yamaqla yaraşığın
Fərqi çox-çox böyükdür.
Birisi yersiz bəzək,
Birisi artıq yükdür...

**NANKOR**

Tavandan baxıb
Büllur Çilçıraq,
Meft Lampasını –
(Öz babasını!..)
Saymırdı çıraq.
Deyirdi:
            - Onun,
Yeri muzeydir.
Bizim sıramızda,
O, artıq şeydir...

**MİS ÜZÜK**

Girdi qızıl suyuna,
Mis üzük qızıllandı.
Baxanlar zənn etdilər,
O, xalis qızıldandı.
Əyar bildirən
                    saxta,
Nişan da üzərində -
Qızıldan qiymətliydi,
Üzüklər nəzərində.
(Həm də yaman paxıldı!..)
Qızıl Üzük adına,
O, toya da taxıldı,
O, yasa da taxıldı.

...Bir gün Məhək Daşıyla,
Yoxlandı,
              yalanları.
Axırı çıxdı üzə.
Daxili çıxdı üzə,

Paxırı çıxdı üzə...

**UYĞUNLAŞMA**

Hinə rəis qoydular,
Köhnə müavin – Boz Qazı.
O, tez işə başladı,
Özündən razı-razı.
Ördəyi danlayırdı,
Toyuğu danlayırdı.
Ları Xoruz səhərlər,
Çox asta banlayırdı...
Gəzdilər – Qazgəzişi,
Güldülər – Qazgülüşü.
Toyuqların yadından,
Çıxmışdı öz yerişi.
Çil beçə, axsaq Ördək,
Qaz kimi bəzənirdi.
Hində hamı özünü,
Boz Qaza bənzədirdi.
Amma qoca Çil Toyuq,
Qazdan da ayıq oldu.
Hinin yeni rəisi,
Qoca Çil Toyuq oldu.
Yenə də hindəkilər,
Zamanla ayaqlaşdı.
Ördəklər toyuqlaşdı,
Beçələr toyuqlaşdı.
Yenicə ayaq açmış,
Cücələr toyuqlaşdı...

**ÖZÜLSÜZ DİVAR**

Çoxdan uçub-tökülmüş,
Kərpic-kərpic sökülmüş
Bir Divarı tikdilər, -
Xeyli mala çəkdilər.
Dedilər: -Bu, tarixin,
Qədim yadigarıdır.
Döyüşlərdə dağılmış,
Bir qala Divarldlr...
Bir azca külək döydü,
Bir azca dolu vurdu.
Erkən yazda bir gecə,
Yağış yuyub uçurdu.
...Sən demə bu Divarın,

Quru adı var imiş.
Malanın yaxın dostu –
Dözümsüz Divar imiş,
Özülsüz Divar imiş...

## LOVĞA KÜLQABI

Büllur Külqabı,
Saxsı Güldanı
Lağa qoyurdu –
Belə deyirdi:
-Hələ adını,
Gülqabı qoyub.
Onunla birgə,
Məclisə çıxmaq
Ayıbdır, ayıb...

...Məclisdə Güldan
Gül ilə doldu.
Külqabı isə,
Kül ilə doldu...

## ÇƏLLƏK QAPAĞI

Qapağı bəyənmirdi,
Çəlləyi neçə ildi.
Yaman kobud olmuşdu,
Sanki Qapaq deyildi.
Sudan, yağışdan içib,
Şişmişdi topsayağı.
Törpülənib nazildi,
Kobud Çəllək Qapağı...

## BAĞA SƏBRİ

Bağa söylədi
İclasda dünən:
-Sincabı bəhsə,
Çağırıram mən...
Müqavilədən
Razı qaldılar.

Qoca natiqə
Əl də çaldılar.
Plan dolmadı
İlin sonunda.
Gördülər Bağa
Yatır qınında.
Dedilər: - Günah,
Bağada deyil.
O, bu səbrlə,
Gəzib üç yüz il!..

**ZİDDİYYƏT**

Ata Qarğa, -
Ağzında qoz,
Daş üçün dağ,
Düz axtarır.
Bala Qarğa, -
Əlində daş...
Sındırmağa
Qox axtarır...

**PİYADA TƏSƏLLİSİ**

Şahmat taxtası üstdə,
Xoş təsəlli verirdi,
Piyadaya Piyada:
- Altı addım da atsaq,
Vəzirə çevrilərik,
Çatarıq yüksək ada...

Əfsus, buna çatmadı,
Heç birinin imkanı.
Üç gedişə oldular,
Piyadanın qurbanı...

**KƏPƏNƏK ƏDASI**

Aarılar ehtiyatla
Hər dəfə çəkib şirə,
Vızıldayıb təşəkkür
edirlər çiçəklərə

Kəpənəksə çiçəyə
Ədayla, nazla qonur.
Əvəz olaraq hələ,
Ondan təşəkkür umur...

## SAMOVAR

Suyu qaynatmaq üçün,
Çox çalışdı Samovar.
Öz varını payladı,
Çaydanlara o ki var.
Ancaq onun adını,
Daha olmadı anan.
Lüləyini dik tutdu,
Dəmlənərək hər Çaydan...

## TABAŞİR BÖHTANI

Böhtan atıb Tabaşir,
Bir Yazı Taxtasına:
-Yalnçısan ! – deyirdi.
Ancaq özü həmişə
Ağ yalanlar yazırdı,
Ağ yalan söyləyirdi...

## BEL GİLEYİ

Kotanın arxasınca,
Danışırdı hər gün Bel:
- Bizim əməyimizi
Görən yoxdur elə bil.
Quyruqda sürünsəydim,
Olsaydım mən də yedək,
Yüz hektar şumlayardım,
Səhərdən axşamadək!..

Ancaq bu Bel həmişə,
Tənbəllik eləyirdi.
“Çiynimdən basmasalar,

İşləmərəm!” – deyirdi...

**PORSUQ**

Bir haray bürümüşdü,
Başdan –başa qoruğu.
Çünki yanə kim isə,
İncitmişdi Porsuğu...

**QIRQOVUL**

Qırqovul gizlənsə də,
Canavardan, Çaqqaldan, -
Quyruğu görünürdü,
Gizləndiyi sıx koldan...

**BOŞQAB –BOŞ QAB...**

Ağzınacan yağ ilə,
Doldurdular boş qabı.
Qaşıqlar boşaltdılar,
Bir anda bu Boşqabı!...

**DOLU QAZAN –BOŞ QAZAN** ...
Qaşıq-qaşıq dolmuşdu,
Bir Mis Qazan bir zaman.
Çömçə-çömçə boşaldı,
Bir Çömçəylə bu Qazan!..

**NAŞI MİZRAB**
Tez-tez xaric vururdu,
Son vaxtlar sədəfli Saz.
Sinəsindən qopurdu,
Yad təranə, yad avaz.

Simləri köklənibdir,
Yerindədir pərdəsi.
Niyə belə pozulub,
Görəsən onun səsi?!

...Telləri inildəyir,
Pərdəsi çəkir əzab.
Dindirirdi bu Sazı,

Çünki naşı bir Mizrab!..

**TARAKANIN ƏSƏRİ**

Ev heyvanları haqda,
əsər yazdı Tarakan.
Onun əsərində,
Özü idi qəhrəman...

**PİLLƏKƏN**

Eskalator deyirdi:
- Heykəlimdir Pilləkən!
Lift isə söyləyirdi:
-Sağ əlimdir Pilləkən!..

**YARASA**

Bir qaranlıq gecədə,
Lovğalandı Yarasa:
-Dünən çox danlamışam,
Günəş gedib harasa...

## KİTABIN İÇİNDƏKİLƏR

Kitab ......................................................................................................3
Kirkirə iştahası ..................................................................................... 3
Mişar ...................................................................................................... 3
Rəqabət ...................................................................................................3
Kərtənkələ ..............................................................................................4
Sac ...........................................................................................................4
Dörd rəngli qələm....................................................................................5
Mala və divar ........................................................................................ 5
Qanqal .....................................................................................................5
Tül pərdə ..................................................................................................5
Top...........................................................................................................6
Xəlbir .......................................................................................................6
Firça .........................................................................................................6
Ərköyün bala ...........................................................................................6
Cib fənəri .................................................................................................7
Bıçaqlar ....................................................................................................7
Çərpələng .................................................................................................7
Məqalə ......................................................................................................8
Rüşvət .......................................................................................................8
Şanapipik ..................................................................................................9
Təyinat ......................................................................................................9
Arı kəşfi .....................................................................................................9
Divar .........................................................................................................10
Dəm çaydanı .............................................................................................10
Külüng ......................................................................................................10
Maqqaş ......................................................................................................11
Çürük diş ...................................................................................................11
Bulaşıq çönçə ............................................................................................11
Acgöz quyu ...............................................................................................12
Saman altında su... .....................................................................................12
Qəlib ...........................................................................................................12
Kəmşirin şərab ...........................................................................................13
Smeta ..........................................................................................................13
Gəbə taleyi ..................................................................................................14
Siçan qorxusu ..............................................................................................14
Durğunluq ....................................................................................................15
Vintaçan fəndi ..............................................................................................15
Maqnit və Kompas .......................................................................................15
Qələm və kağız ..............................................................................................16
Gürzə yalanı ..................................................................................................16
Dərə xəlvət olanda .........................................................................................16
Qarğa dəlili ....................................................................................................17
Arı yalanı–arı planı ........................................................................................17
Sərçə memarlığı .............................................................................................18
Mismarlar... Taxtalar .........................................................../.......................18
Fal yeyən toyuq ..............................................................................................19

Süd gölü ....................................................................................................19
Qarışqalı daş ..........................................................................................20
Maqnit tamahı .........................................................................................20
Plastilin ...................................................................................................20
İstək .........................................................................................................21
Şampan şərabı .........................................................................................21
İynə – düymə ...........................................................................................22
Gicitkən ....................................................................................................22
“Qəhrəmanlıq” .........................................................................................22
Hörümçək zooparkda ................................................................................23
Pərsəng......................................................................................................23
Çaqqal “çaqqallığı” ...................................................................................23
Qartal və “qartallar” ..................................................................................24
Daş və qaya................................................................................................24
Külək kələyi ..............................................................................................24
Tay təkər ....................................................................................................25
İt və motal ..................................................................................................25
Tar və kaman ..............................................................................................26
Namərd körpüsü .........................................................................................26
Çəki dası .....................................................................................................27
Küt biçaq .....................................................................................................27
Dirək ...........................................................................................................27
Adaş .............................................................................................................28
Əjdaha heykəli .............................................................................................28
Arxalı mismar ..............................................................................................28
Dəyişmə .......................................................................................................29
Kibrit çöpü ....................................................................................................29
Yay – ox ........................................................................................................29
Nağara ...........................................................................................................30
Milçək adəti ...................................................................................................30
Sərxoşluq .......................................................................................................30
Daraq ..............................................................................................................31
Çaqqal rəhbərliyi ...........................................................................................31
Çaqqal ............................................................................................................32
Tutuquşu .........................................................................................................32
Əlüzyuyan.......................................................................................................33
Qastrol .............................................................................................................33
Koramal ...........................................................................................................33
Buqələmun .......................................................................................................34
Ehtiyatli zürafə.................................................................................................34
Yay qəzəbi .......................................................................................................35
Polad ................................................................................................................35
Yarasa ..............................................................................................................35
Şibyə ................................................................................................................36
Sayqac və kompyuter .......................................................................................37
Özünüsevən meymun.........................................................................................37
Qarğa tamahı ......................................................................................................38
Qartallıq edən qarğa ...........................................................................................38
Tamahkar tərəzi ..................................................................................................39
Sarmaşıq və qarpız tağı .......................................................................................39

Kələf ....................................................................................................40
Bıçaq, bıçaq haqqında.....................................................................................40
Kəndir ..................................................................................................41
Dəvəqu şu və dəvə ........................................................................................41
Arıquşu ..................................................................................................41
Xətkeş və pərgar .........................................................................................42
Tabaşir yazisi ...........................................................................................42
Artıq tamah .............................................................................................42
Yalançının şahidi ........................................................................................43
“Bəxtsiz qurbağa” ........................................................................................43
Ördək arzusu .............................................................................................43
Dağ və okean .............................................................................................44
Şoranlıq istəyi ..........................................................................................44
Sovkaların diləyi ........................................................................................44
Kərtənkələ istəyi ........................................................................................45
Danadişi .................................................................................................45
Böv və əqrəb .............................................................................................46
Lovğa çaydan .............................................................................................46
Paslı iynə ...............................................................................................47
Alaqotu və qurd ..........................................................................................47
Bibərlər .................................................................................................48
Saç......................................................................................................48
Bülbül və kəpənək.........................................................................................49
“3” və üç.................................................................................................49
Lovğa tısbağa.............................................................................................49
Akvarium .................................................................................................50
Dibçək ...................................................................................................50
Lovğa kürək ..............................................................................................50
Körpü ....................................................................................................51
Kərtənkələ sevgisi .......................................................................................51
İynə və sap ..............................................................................................51
Canavar kələyi ...........................................................................................52
Çömçə və kəfkir ..........................................................................................52
Şaqul ....................................................................................................53
Qarğı ....................................................................................................53
Qohumlar .................................................................................................53
Zəli və gənə..............................................................................................54
Tülkü quyruğu.............................................................................................54
Əllərin hikməti...........................................................................................54
Cır alça.................................................................................................55
Çömçə.....................................................................................................55
Tərəzi mərəzi.............................................................................................55
Xətkeş....................................................................................................56
Qonaqpərvərlik............................................................................................56
Qaldırıcı kran............................................................................................57
Çəllək....................................................................................................57
Rəndə ....................................................................................................57
Böyüdücü şüşə.............................................................................................58
Aşsüzən...................................................................................................58
Yamaq və pərsəng...........................................................................................58

Nankor.....................................................................................................59
Mis üzük..................................................................................................59
Uyğunlaşma.............................................................................................60
Özülsüz divar...........................................................................................60
Lovğa külqabı..........................................................................................61
Çəllək qapağı...........................................................................................61
Bağa səbri.................................................................................................61
Ziddiyyət..................................................................................................62
Piyada təsəllisi..........................................................................................62
Kəpənək ədası .........................................................................................62
Samovar...................................................................................................63
Tabaşir böhtanı........................................................................................63
Bel gileyi..................................................................................................63
Porsuq......................................................................................................64
Qırqovul...................................................................................................64
Boşqab –boş qab... ..................................................................................64
Dolu qazan –boş qazan ... ........................................................................64
Naşı mizrab .............................................................................................64
Tarakanın əsəri.........................................................................................65
Pilləkən....................................................................................................65
Yarasa......................................................................................................65

Nəşriyyatın direktoru Ə.T.Əliyev
Mətbəənin direktoru Ə.Ə.Vəliyev

Rəssamı Firavan
Bədii redaktoru R.Məmmədov
Texniki redaktoru N.Qasımova
Korrektorları R.Qasımova, S. Musayeva

İB № 6283
Yığılmağa verilmiş 22. 04. 93. Çapa imzalanmış 8. 07. 93. Kağız formatı 84X108 1/16. Mətbəə kağızı № 2. Yüksək çap üsulu. Şərti ç/v 3,78. Uçot çap v. 3,5. Tirajı 5000. Sifariş № 303. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi
"Gənclik" nəşriyyatı, Bakı, Hüsü Hacıyev küç, 4.
"Qızıl Şərq" mətbəəsi, Bakı, Həzi Aslanov küçəsi. № 80.

İsgəndər Fərhadoğlu
ARI KƏŞFİ
*Bakı . Gənclik . 1993*